ədalət.-2019.-24 may.-S.8.



**İLTİMAS SƏMİMİ**

## DİDƏRGİN DÜŞMÜŞ YUXUDUR

Əlləri qoynunda,
Mənə sarı boylanan dəniz
Düşüncələrdən qurtula bilmir.
Dalğaların pıçıltısı,
Qağayıların uçuşu,
Balıqların dəniz sevinci.
Yarpaq -yarpaq,
Göyərməkdə olan misralarım,
Bir az da, dənizə bənzəyir.
Yaddaşımda mürgü vuran xatirələr,
Nə vaxtsa yuxusu
Qarışmış torpaq kimi,
Zamanın ayaq səslərindən oyanar.
Ümid üzümə açılan qapı,
Ardımca yüyürən yol.
Bir kimsəsizin gözündən
Didərgin düşmüş yuxudur.

## YARIMÇIQ ÖMRÜNÜ YAŞAYANLARIQ

Bəlkə, daş -daş susmaq
Ağac -ağac kirimək,
Qorxudandır.
Qorxu hissi bir az da ölüm qoxuyur,
Kimi dost itkisindən,
Kimi tənhalıqdan.
Kimi isə, öz əcəlindən qorxur.
İtirdiklərim bir arşın yol,
Bir damla ömür,
Bir ovuc səsdir...
Sənə tanış olmayanlar,
Mənə də tanış deyil.
Eyni cür tale
Olmur, deyərdin,
Demə, olurmuş.
Biz hansısa talesizlərin,
Yarımçıq ömrünü yaşayanlarıq.

## VƏ ARXADA QALAN İLLƏR

Gəl, bu yol ayrıcısında,
Bu tənha ağacın altında
Sevgimizi
Daşlara,
Buludlara pıçıldayaq.
Payıza az qalıb deyə,
Çıxıb getməyə, hərə bir yer axtarır.
Biz də, bu sevdanın kölgəsində
Ünvansız gedirik.
Dəniz sus,
Şəhər sakit
Bir qapı da açıq deyil.
Sevənlərin nisgilini əridən şəhər,
Sevişməyi bizə çoxdan unutdurub.
Baxışlarının istisi
Hələ xəyalımdan soyumayıb.
Bu da ilk görüşümüzü xatırlayan bürkülü hava,
Və arxada qalan illər.

## YADDAŞIMIZDAN SİLİNDİ

Kölgəmizin istisi yollarda
Hələ soyumamış,
Üşüdü yolların yuxusu.
Zamanın ətəyindən yapışıb,
Dərdini yağışa,
Küləyə söyləyə bilmədik.
Ötən illərdən bizə bir ovuc xatirə qalmışdı,
O da, damla -damla yaddaşımızdan silindi.
İndi kömür kimi qaralmış bəxtimizin
Bəyaz yolların,
Sonu hayanadır, bilinmir.
Payız yağışı
Taleyimizi isladıqca
İçimizdə ilan -ilan qıvrılan cığırların hayqırtısı
Yarpaq -yarpaq boy atır.
Rahatlığını itirmiş
Taleyi ovundurmaq olmur.
Bəlkə, bu soyuq torpaq bizi sevmir,
Bəlkə gecikirik.
Yer kürəsini
Yuxuya verib qaçaq.
Ötən illərdən bizə bir ovuc xatirə qalmışdı,
O da, damla -damla yaddaşımızdan silindi

## ÜMİD QOXUYUR

Hələ ayrılıqdan xəbərsiz,
Həsrətlə bir kəlmə də,
Kəsməmişdim.
Bütün fəsillər
Ümid qoxuyurdu.
Nə payızın küləyindən,
Nə qışın sazağından qorxurdum.
Qar kimi bəmbəyaz yollar
Ləpirlərimdən ötrü darıxırdı.
Mən isə, misralarımın çiynində,
Gecələr sayrışan ulduzlara baxırdım.
Bütün fəsillər ümid qoxuyurdu...

## ÜMİDİNİ İTİRMİŞ AĞACAM

Kölgəmin çiynində
Bir yol qüruba sarı
Uzanıb gedir.
Mən səsə çevirilən kölgə,
Ovcumda bir dəniz
Yüyürməkdədir.
Susur, bir kimsəsizin
Yanaqlarına süzülən göz yaşları.
Nə qədər çalışsam da,
Xatırlaya bilmirəm
İtirdiklərimi bir -bir.
Mümkünsüzdür,
Nə qədər hönkür -hönkür ağlasam da,
Yenə ləpirlərimdə bir dəniz,
Əngin göylərə həsrətlə boylanır.
Bu sükut qaranlıq gecəni xatırladır,
Bu qapı arxasında ötən günlərimdir.
Bu daş alın yazımdır,
Ovcun ayrılıq qoxuyur,
Nəfəsin hicran.
Mən dünyaya yorğun -yorğun baxan,
Ümidini itirmiş ağacam.

## HARDASA KÖLGƏM QƏDƏR MƏNƏ YAXINDIR

Unutduqlarımdır,
Torpağa, daşa çevirilib,
Buludların ətəyindən sürüşüb düşən
Bir damla ümidəm.
Bahar qoxuyuram,
Bu da, dərdləşdiyim tənha ağac,
Taleyimə bənzəyən suvaqsız ev.
Yağışın pıçıltısı
Uşaqlıqda ən çox sevdiyim nəğmədir.
Gözümdən didərgin düşmüş yuxu,
Hardasa kölgəm qədər mənə yaxındır.

## BİR QARIŞ TORPAĞIN YUXUSU

Torpağın
Yaddaşına hopan,
Kimsəsizlərin
Ahıdır.
Baxımsız məzarlar,
Dağılmış evlər,
Qurşağacan ot basmış yollar...
Nə vaxtsa, torpaq dilində
Danışacaq.
Nə vaxtsa, xatırlanar,
Kəndimizin palçıqlı yolları da...
Sən ayaqyalın üstümə yüyürən səs,
Göz yaşlarıyla yolları isladan kölgə.
Mən küləklərə sinə gərən ağac,
Əngin göylərə pıçıldayan bulud.
Hər ikimiz qorxu içində,
Qarışıb elə bil, bir qarış torpağın yuxusu...

## GÖZYAŞLARIMLA SUVARMIŞAM

Vaxta bir az söz qatdım,
Üşüdü əllərimdən,
Dünənin həsrəti.
İlan -ilan qıvrılan yolların
Dodaqlarında
Xatirələr söz -söz öldükcə,
Xəyalımdan yenə
Birgə olduğumuz günlər keçdi.
Daha dayanmağa bir yer axtarma,
Gəzdiyin yerləri,
Adladığın yolları,
Gözyaşlarımla suvarmışam.

## VƏ NAKAM SEVGİM

Bilirəm,
Bütün yollar sənə sarıdır.
Sükutun caynağından
Nə vaxtsa,
Yolları qamarlayıb
Yüyürüb gələcəyəm..
Daşlarla baş -başa
Dayanıb susmaq,
Ürəyə ən ağır yükmiş...
Gözlərimə çökən
Gecənin qaranlığı,
Qaranlıqda sən,
Və nakam sevgim.

## YUXU QAÇAQDIR

Ayrılıq qoxuyur bu yol, bu cığır,
Yüyürür ardımca bir qərib kölgə.
Təklikdən bezkmiş tənha bir ağac,
Boylanır arxamca qəm çəkə -çəkə.

Dil açıb danışsın yaşıl yamaclar,
Dinliyək sevimli baharı bir az.
Qışın sazağından qurtulmuşlarıq,
Duyğular ağappaq, hisslər bənbəyaz,

Yayın bürküsündən yaxa qutarmış,
Bu neçə qəribin gəzdiyi dağdır.
Bu ağac, bu bulaq tanışmı sənə?
Torpağın gözündən yuxu qaçaqdır.

## BUDUR TALEYİM

Odur, ayaq tutub ardımca gələn,
Üstümə uçurdur əngin göyləri,
Odur, sevmədiyim qaranlıq gecə,
Qapımda dayanıb, çəkilmir geri.

İçimi göynədən tənhalığımdır,
Yüyürür üstümə küləklər yenə.
Fəqət düşünməyə bir həvəs də yox,
Təsəlli olmayır bir söz də mənə.

Yuxusu qarışıb misralarımın,
Gözümə dəymәyir ürək sirdaşım.
Yenə xəyalımda, sahilsiz dəniz,
Səndən söhbət açım, səndən danışım.

O tənha ağaca bənziyir elə,
Mənim tənahlığım, mənin təkliyim.
Gecə uzandıqca gecikir səhər,
Budur alın yazım, budur taleyim.

## KİRİMƏK OLMUR

Başımda dolaşan bir fikir kimi,
Rahat buraxmayır küləklər məni.
Əngin səmaları buludlar örtmüş,
Nə ümid təzədir, nə arzu yeni.

Bilirəm, getməyə həvəsin böyük,
Gedənlər peşiman qayıdır geri.
Bir adım bəri gəl, tələsmə sən də,
Bir -bir xatırlayaq xatirələri.

Daş -daş susmaq olmur, kirimək olmur,
Hələ neçə -neçə şaxtalı qış var.
Budur, ovcumuzdan sürüşüb düşən,
Budur, tanış səslər, tanış sədalar.